AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

ARTİ AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

MÜTDA MƏKTƏBƏQƏDƏR VƏ ÜMUMİ TƏHSİL ÜZRƏ DÖVLƏT AGENTLİYİ

# Mərkəzi imtahanla qəbul həyata keçirilən lisey və gimnaziyalara qəbul qaydaları

## 1. Ümumi müddəalar

1.1. Bu sənəddə mərkəzləşdirilmiş imtahan əsasında lisey və gimnaziyalara qəbul prosesinin təşkili və keçirilməsinə dair əsas prinsiplər və qaydalar müəyyən olunur.

1.2. Qəbul prosesi yalnız ***Şagirdlərin elektron yerdəyişməsi portalı*** - https://sy.edu.az üzərindən elektron qaydada aparılır.

## *2.* Qəbul imtahanı

2.1. İmtahan aşağıdakı fənlər üzrə keçirilir:

- Tədris dili (Azərbaycan və ya Rus dili);
- Riyaziyyat (standart və qeyri-standart suallar əsasında).

2.2. Tədris dili şagirdin qeydiyyat zamanı etdiyi **"Kitabça dili"** seçiminə əsasən müəyyən edilir və sonradan dəyişdirilə ***bilməz.***

**QEYD:** Portalda qeydiyyatdan keçərkən **Kitabça dili** bölməsi görünəcəkdir. Tədris dili başqa dillərdə həyata keçirilən şagirdlərə həmin xanada “Azərbaycan” və ya “Rus” dili seçimi təqdim edilir. Bu mərhələdə seçilən dildən asılı olaraq şagirdə uyğun məktəblər bölməsi açılır. Eyni zamanda şagirdin sual kitabçası da həmin dildə təqdim edilir. Şagird qəbul olunacağı halda tədris dili “Kitabça dili” seçiminə uyğun olaraq birbaşa tənzimlənir.

2.3. Rus bölməsində təhsil alan şagird istəyə əsasən Azərbaycan və ya Rus bölməsində təhsilini davam etdirə bilər. Azərbaycan bölməsi üzrə təhsil alan şagird tədris dilini dəyişə ***bilməz.***

2.4. Tədris dili Azərbaycan və ya Rus dilindən fərqli olan şagirdlər imtahan qeydiyyatı zamanı “Kitabça dili” bölməsində öz istəklərinə uyğun olaraq Azərbaycan və ya Rus dilini seçə bilərlər. Qəbul olunduqları təqdirdə təhsil aldıqları tədris dilinin həmin seçimə uyğun olaraq tənzimlənəcəyi nəzərə alınmalıdır.

## 3. Qəbul imtahanının qiymətləndirilməsi

3.1. Mərkəzi imtahanla qəbul yalnız VI (VII sinfə qəbul) sinif üçün nəzərdə tutulur.

3.2. Sual sayı və ballar aşağıdakı kimidir:

| VII sinfə qəbul | TƏDRİS DİLİ | | RİYAZİYYAT | | CƏMİ |
|---|---|---|---|---|---|
| | 15 (1 balla qiymətləndirilən suallar) | 5 (1.5 balla qiymətləndirilən suallar) | 35 (1 balla qiymətləndirilən suallar) | 5 (1.5 balla qiymətləndirilən suallar) | 60 SUAL |
| | 22.5 BAL | | 42.5 BAL | | 65 BAL |

Qeyd: Hər fənn üzrə son 5 sual 1,5 balla, digərləri 1 balla qiymətləndirilir.

**4. Bərabər bal toplayan şagirdlərin sıralanması və qəbul qaydası**

4.1. Bərabər bal toplayan şagirdlər arasında sıralama və qəbul aşağıdakı ardıcıllıqla müəyyən edilir:

4.1.1. Riyaziyyat fənni üzrə 1,5 ballıq test tapşırıqlarından toplanmış nisbi balı daha yüksək olan şagird üstünlük qazanır. Bu göstərici eyni olduğu halda,

4.1.2. Riyaziyyat fənni üzrə 1 ballıq test tapşırıqlarından toplanmış nisbi bal nəzərə alınır. Bu göstərici eyni olduğu halda,

4.1.3. Tədris dili fənni üzrə 1,5 ballıq test tapşırıqlarından toplanmış nisbi bal üstünlük meyarı kimi tətbiq olunur. Bu göstərici eyni olduğu halda,

4.1.4. Tədris dili fənni üzrə 1 ballıq test tapşırıqlarından toplanmış nisbi bal əsasında sıralama aparılır.

**5. Prosedur və mərhələlər**

5.1. Qəbul prosesi iki və ehtiyac olduqda üç mərhələdə həyata keçirilir.

5.2. I mərhələdə aşağıdakı addımlar icra olunur:

5.2.1. Portalda valideyn modulu yaradılır və şagird əlavə olunur;

5.2.2. Sorğu yaradılır, buraxılış vərəqəsi əldə edilir;

5.2.3. İmtahan keçirilir;

5.2.4. Nəticələr açıqlandıqdan sonra lisey/gimnaziya seçimi edilir (I mərhələdə 3, II və III mərhələlərdə 2 seçim);

5.2.5. Şagird qəbul olunduğu təqdirdə avtomatik qəbul olunduğu müəssisə üçün sorğu yaradılır;

5.2.6. Yerdəyişmə portalı aktivləşdirkdən sonra Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən elan olunan tarixlərdə sənədlərin qəbulu həyata keçirilir.

5.3. II və ehtiyac olacağı təqdirdə III mərhələdə aşağıdakı addımlar icra olunur:

5.3.1. Lisey/gimnaziya seçimi edilir (2 seçim);

5.3.2. Şagird qəbul olunduğu təqdirdə sənədlərin qəbulu həyata keçirilir.

**5.4. Qəbul sənədlərinin vaxtında təqdim edilməməsi halında növbəti mərhələdə iştirak hüququ itirilə bilər.**

5.4.1.Birinci mərhələdə seçim edib qəbul olan şagird həmin təhsil müəssisəsində oxuyacağını təsdiqləmir, sənəd qəbulu zamanı gecikir, sənədlərini həmin liseyə, gimnaziyaya vaxtında təqdim etmir, yaxud oxumaqdan imtina edirsə, onun ikinci mərhələdə iştirakına icazə verilsə də, ikinci mərhələdə qəbul olub hər hansı səbəbdən sənədlərini qəbul olduğu lisey yaxud gimnaziyaya təqdim etməyən şagirdlərin üçüncü mərhələdə (keçiriləcəyi halda) iştirakına ***icazə verilmir.***

5.4.2.Lisey, gimnaziya seçimi edib qəbul olmayan şagirdlərin sonrakı mərhələlərdə iştirakında heç bir məhdudiyyət yoxdur.

5.4.3.Birinci mərhələdə seçim etməyən şagirdlərin növbəti mərhələdə vakant yer olan lisey və gimnaziyalar arasında seçim etmək imkanı olacaqdır.

5.4.4.Birinci mərhələdə seçim edib qəbul olan, lakin hər hansı səbəbdən sənədlərini həmin lisey yaxud gimnaziyaya təqdim etməyən şagirdlər ikinci mərhələnin seçimlərində iştirak edə biləcək. İkinci mərhələdə qəbul olunmayacaqları halda üçüncü mərhələdə də iştirak edə bilərlər.

5.4.5.İkinci mərhələdə lisey, gimnaziya seçimi edib qəbul olan (sənədlərini qəbul olduqları lisey yaxud gimnaziyalara təqdim edən, etməyən) şagirdlərin üçüncü mərhələdə iştirak etmələrinə icazə verilmir.

5.4.6.Birinci mərhələdə seçim edib qəbul olan, lakin ikinci mərhələdə seçim etməyən şagirdlər üçüncü mərhələdə iştirak edə bilərlər.

5.4.7.Şagird mərkəzləşmiş qaydada imtahan verərək qəbul olunduğu lisey və gimnaziyadan mərkəzləşmiş qaydada qəbul həyata keçirilən digər təhsil müəssisəsinə yerdəyişmə edə bilməz.

5.4.8.Boş qalan yerlərə ikinci və üçüncü mərhələ ilə əlaqəli lisey/gimnaziya seçimi (ehtiyac olacağı halda) avqust ayında həyata keçiriləcəkdir.

6. **Texniki və təşkilati məsələlər**

6.1. Qeydiyyat zamanı seçilən imtahan binası və kitabça dili seçimi sonradan dəyişdirilə ***bilməz.***

6.2. Buraxılış vərəqi, şəxsiyyət vəsiqəsi və digər tələb olunan ləvazimatlar olmadan imtahanda iştirak etmək ***olmaz.***

6.3. İmtahana mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, çanta, məlumat kitabçası, xarici yaddaş qurğuları və başqa yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək **qadağandır.**

6.4. Qeydiyyatdan keçərkən tələb edilən bütün məlumatları daxil etdiyinizə əmin olun. Buraxılış vərəqi yüklənib çap edilməyənə qədər qeydiyyatınız tamamlanmış hesab olunmur.

6.5. Şagirdin şəxsiyyət vəsiqəsində şəkli yoxdursa, buraxılış vərəqinə mütləq son bir ayda çəkilmiş 3x4 ölçüdə şəkil əlavə edilməlidir.

6.6. Buraxılış vərəqinin möhürlə təsdiqlənməsi zəruri deyil.

6.7. Şagird ancaq buraxılış vərəqində qeyd olunan imtahan mərkəzində (binasında) imtahanda iştirak edə bilər.

6.8. Şagird imtahan mərkəzinə imtahanın başlayacağı vaxtdan 1 (bir) saat tez gəlməlidir.

6.9. Şagirdin imtahana gələrkən mütləq özü ilə **gətirməli** olduğu sənəd və ləvazimatlar: ***şəxsiyyət vəsiqəsi, imtahana buraxılış vərəqi (çap olunmuş formada), tünd qara, yaxud göy rəngdə yazan qələm.***

6.10. Şagirdin imtahana gələrkən **gətirə biləcəyi** əlavə ləvazimatlar: ***sadə karandaş, pozan, eynək (ehtiyac varsa), şəffaf butulkada su.***

6.11. Birinci mərhələdə 3 (üç) yer seçimi imkanı verilir. Hər 3 (üç) seçimi qeyd etmək zərurəti **yoxdur.**

6.12. Şagirdin sənədlərinin qəbul olunduğu liseyə və ya gimnaziyaya təqdim edilməsi əsasən avqustun ilk həftələrində həyata keçirilir.

6.13. İkinci və üçüncü mərhələdə hər şagirdə 2 (iki) seçim imkanı verilir. Bu mərhələlər də əsasən avqust ayında keçirilir. Hər 2 (iki) seçimi qeyd etmək zərurəti **yoxdur.**

## 7. Əlaqə və Dəstək

Əlavə məlumat və dəstək üçün:

https://sy.edu.az üzərindən "Əks əlaqə" bölməsi